# 2013-cü ilin Azərbaycan Respublikasında «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

"Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"nın (2003-2012-ci illər)" gerçəkləşdirilməsi ölkəmizdə informasiya cəmiyyətinin formalaşdırılması üçün müvafiq hüquqi baza yaratmışdır. Bununla yanaşı, həyata keçirilən dövlət proqramları və zəruri islahatlar nəticəsində ölkəmizin ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası təmin edilmiş, elektron hökumətin yaradılması, biliklərə əsaslanan iqtisadiyyatın təşəkkülü, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılmışdır.

Respublikamızda ən yeni texnologiya - 4G-nin tətbiqi, milli irsimiz və mədəniyyətimizlə bağlı materialların virtual məkanda daha dolğun şəkildə yerləşdirilməsi, azərbaycandilli internet resurslarının zənginləşdirilməsi, internet-radio və internet-televiziya proqramları, elektron qəzet və jurnalların yayılması, sosial şəbəkələrin geniş yer alması və respublika əhalisinin əksər hissəsinin internet istifadəçisinə çevrilməsi informasiya-kommunikasiya texnologiyalarının inkişafının əyani göstəricisidir. Elm və texnikanın ayrı-ayrı istiqamətlərinin tərəqqisinə təkan verəcək kosmik sənayenin yaradılması ilə bağlı dünyanın aparıcı xarici mütəxəssislərinin iştirakı ilə Azərbaycanın süni telekommunikasiya peykinin orbitə çıxarılması üzrə işlərin artıq həlledici mərhələyə qədəm qoyması informasiya-kommunikasiya texnologiyalarının potensialından daha dolğun istifadə üçün möhkəm zəmin yaradır. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin həyata keçirilməsini təmin edən "ASAN xidmət" mərkəzlərinin yaradılması da elektron hökumətin formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edir.

BMT Baş Assambleyasının qəbul etdiyi "Minilliyin Bəyannaməsi" və "İnformasiya və kommunikasiya texnologiyalarından inkişaf naminə istifadə" haqqında qətnamələri nəzərə alaraq, qabaqcıl texnologiyaların vətəndaşların gündəlik həyatının müxtəlif sahələrində tətbiqini təmin etmək məqsədi ilə və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2013-cü il Azərbaycan Respublikasında "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilsin.

2. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə 2013-cü ilin Azərbaycan Respublikasında "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsinə dair tədbirlər planını hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
*Bakı şəhəri,*
*16 yanvar 2013-cü il.*

# Məhsəti Gəncəvinin yaradıcılığının 900 illik yubileyinin keçirilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Zəngin ənənələrə malik çoxəsrlik Azərbaycan poeziyasının tanınmış nümayəndəsi Məhsəti Gəncəvinin ədəbiyyatımız tarixində özünəməxsus yeri vardır. Onun yaratdığı söz sənəti nümunələri insanı ucaldan yüksək bəşəri duyğular, nikbin ruh və dərin lirizmlə səciyyələnərək geniş şöhrət tapmış, sonrakı dövrlərdə bədii zövqün formalaşmasına mühüm təsir göstərmişdir. Şairənin ədəbi şəxsiyyəti yaradıcı Şərq qadınının fikir və mənəvi azadlığının parlaq təcəssümü kimi Qərb şərqşünaslarının əsərlərində çox yüksək dəyərləndirilmişdir. Məhsəti Gəncəvinin yaradıcılığının 900 illik yubileyi YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd olunması proqramına daxil edilmişdir.

Azərbaycan poeziyasının inkişafına töhfələr vermiş şairə Məhsəti Gəncəvinin yaradıcılığının 900 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Şəhər İcra Hakimiyyəti ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Məhsəti Gəncəvinin yaradıcılığının 900 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
*Bakı şəhəri, 16 yanvar 2013-cü il.*

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin sosial iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir

(Əvvəli 1-ci səhifədə).

Onlardan 93 mini daimi iş yeridir. Proqramın əvvəlindən 1 milyon 200 min yeni iş yeri açılmışdır. Bu da öz növbəsində, işsizliyin böyük dərəcədə azaldılmasına xidmət göstərmişdir. İşsizliyin səviyyəsi 2012-ci ildə bir qədər aşağı düşmüş və indi 5,2 faiz səviyyəsindədir. İşsizliklə bilavasitə bağlı olan yoxsulluğun səviyyəsi də aşağı düşmüşdür—7,6 faizdən 6 faizə. Bu, hətta inkişaf etmiş ölkələr üçün çox gözəl göstəricidir.

Cənab Prezident qeyd etmişdir ki, 2013-cü ildə görüləcək işlər, yeni, infrastruktur layihələrin, sosial proqramların icrası nəticəsində əminəm ki, yoxsulluq səviyyəsi daha da düşəcək və beləliklə, 10 il bundan əvvəl qarşıya qoyulan vəzifə—Azərbaycanda yoxsulluğu tamamilə aradan götürmək vəzifəsi artıq təmin ediləcəkdir.

Ölkə başçısının iclasdakı giriş nitqində Bakı və onun qəsəbələrinin inkişafı proqramının icrasının, sənayeləşmə, həmçinin iri sənaye müəssisələrinin yaradılması, kiçik və orta sahibkarlığın inkişafı, ərzaq təhlükəsizliyi məsələləri, ilə bağlı çox böyük işlər görüldüyü qeyd olunmuşdur. Ölkənin xarici siyasəti də uğurlu olmuşdur. Ötən il Azərbaycan tarixində ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasına sədrlik etmişdir. Bu, Azərbaycan dövlətinin dünya miqyasında nüfuzunun göstəricisi idi.

Cənab Prezident iclasdakı giriş nitqində Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində görülən işlərə xüsusi olaraq toxunmuş, məsələnin həlli yolunda manevləri açıqlamış, Ermənistanın tutduğu qeyri-konstruktiv yolu pisləmişdir. Bu məsələnin ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilə biləcəyini bir daha vurğulamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev geniş və əhatəli, bütün sahələrə toxunan nitqində ordu quruculuğu, Azərbaycanın, hətta gələcək onilliklərdə belə ölkənin iqtisadi inkişafını təmin edə bilən layihələrin daim diqqət mərkəzində olmasından, gələcək planlardan danışmışdır.

İclasda iqtisadi inkişaf naziri **Şahin Mustafayev,** Azərbaycan Respublikası Baş Nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sədri **Əli Həsənov,** rabitə və informasiya texnologiyaları naziri **Əli Abbasov** çıxış etmiş, görülən işlərdən, qarşıda duran vəzifələrdən danışmışlar.

İclasın sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müzakirə edilən məsələ ilə bağlı yekun nitqi də söyləmişdir. Cənab Prezident bu nitqində bir daha ölkədə düşünülmüş siyasət, eyni zamanda planlı addımlarla bütün infrastruktur layihələrinin bu ilin sonunadək başa çatdırılmasından, layihələrin keyfiyyətlə və vaxtında icra edilməsindən danışmış, dövlət investisiya proqramında magistral yolların çəkilişinin, həmçinin şəhərlərarası, kənd yollarının çəkilişinin davam etdirilməsi və tamamlanmasını qeyd etmiş, bir sıra yeni layihələrin icrasını, makroiqtisadi sabitliyin qorunmasını və digər sahələrin inkişaf etdirilməsini təmin etmək üçün potensial imkanlardan istifadə olunmaq lüzumunu nəzər-diqqətə çatdırmışdır. Cənab Proezident yekun nitqini belə bir fikirlə başa çatdırmışdır: «Əminəm ki, hər bir dövlət məmuru bu il ərzində öz vətəninə, xalqına sədaqətlə xidmət edəcək və 2013-cü ili də biz uğurlarla başa vuracağıq».